# Suraxanı rayonunun sosial-iqtisadi inkişafı: real vəziyyət və perspektivlər



**Suraxanı rayonu Azərbaycanın ən qədim yaşayış məskənlərindən biridir desək, yanılmarıq. Hələ XVII-XVIII əsrlərdə burada atəşpərəst məbədinin olması, həmin məbədin qalıqları üzərində sonradan UNESCO-nun "Dünya irsinin ilkin siyahısı"na daxil edilmiş "Atəşgah məbədi"nin ucaldılması, dünyada quruda ilk dəfə 1904-cü ildə neft yatağının sənaye üsulu ilə işlənməsinə məhz Suraxanıda başlanılması və sair kimi faktlar bu yaşayış məntəqəsinin zəngin tarixindən xəbər verir.**

Dünya tarixində ilk dəfə I Avropa Oyunlarının Azərbaycanda keçirilməsi və beynəlxalq idman turniri məşəlinin Suraxanıda yerləşən "Atəşgah Məbədi" Dövlət Tarix-Memarlıq qoruğunda alovlandırılması, bu məşəlin bütün ölkə boyu gəzdirilməsi də rayonun tarixində ən əlamətdar hadisələrdən biri kimi qalacaqdır. Hazırda 200 mindən artıq əhalinin yaşadığı Suraxanı rayonu paytaxt Bakının inzibati ərazi vahidində mühüm məntəqələrdən biridir. İstər sovetlər birliyi dövründə, istərsə də müstəqilliyimizi ikinci dəfə bərpa etdiyimiz vaxtdan sonrakı illərdə Suraxanı rayonunda genişmiqyaslı quruculuq-abadlıq tədbirləri həyata keçirilib, yeni-yeni istehsal və sənaye müəssisələri yaradılıb.

### DAVAM ETDİRİLƏN QURUCULUQ ƏNƏNƏSİ

Ümummilli lider Heydər Əliyevin layiqli davamçısı, Prezident İlham Əliyevin müxtəlif illərdə imzaladığı sərəncamlarla həyata vəsiqə alan regional inkişaf proqramlarının, o cümlədən 2011-2013 və 2014-2016-cı illər üçün nəzərdə tutulmuş Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramlarının uğurlu icrası isə bu yaşayış məntəqəsinin simasını xeyli dəyişib. Suraxanı rayonunda abadlıq-quruculuq işləri sürətlənib, əhaliyə göstərilən sosial xidmətlərin həcmi və keyfiyyəti artıb, yol təsərrüfatı yaxşılaşdırılıb, elektrik enerjisi, qaz, istilik, su təchizatı və kanalizasiya işləri, sosial infrastruktur sahəsində xidmət səviyyəsinin bir qədər də yüksəldilməsi üzrə layihələr həyata keçirilib. Müasir dövrün tələblərinə cavab verən, rəqabətə davam gətirən istehsal müəssisələrinin yaradılması, çoxsaylı yeni obyektlərin istifadəyə verilməsi əhalini daimi iş yerləri ilə təmin edib, onların sosial rifahını yaxşılaşdırıb. Bütün bunlar ümumilikdə Suraxanı rayonunun sosial-iqtisadi inkişafını yüksək səviyyədə təmin edib.

### İNSANLARIN SAĞLAMLIĞININ KEŞİYİNDƏ

Prezident İlham Əliyevin səhiyyə sahəsində müəyyən etdiyi proqramlar da Azərbaycandakı, o cümlədən Suraxanı rayonundakı tibb müəssisələrinin təmir və bərpasına, onların ən müasir avadanlıqlarla təchiz olunmasına, vətəndaşların pulsuz dərman vasitələri və preparatlarla təminatına səbəb olub, rayon əhalisinin müalicəsinin başlıca istiqamətlərini təşkil edib. Azərbaycan Prezidentinin tapşırığına uyğun olaraq, yola saldığımız il ərzində də Suraxanı rayonunda sakinlərin tibbi müayinəsi uğurla həyata keçirilib. Bunun üçün ilk öncə Suraxanı rayon İcra Hakimiyyəti başçısı İlqar Abbasov tərəfindən 2 fevral 2015-ci il tarixli sərəncam imzalanıb, tibbi müayinənin yüksək səviyyədə, operativ təşkil edilməsi üçün rayon İcra Hakimiyyətində komissiya yaradılıb, rayon ərazisində yerləşən müəssisə və idarələrin tibbi müayinədən keçmə qrafiki tərtib olunub. Ardınca da Suraxanıda fəaliyyət göstərən 4 xəstəxana, 4 poliklinika və 1 ambulatoriyada əhalinin pulsuz tibbi müayinəsinin keçirilməsinə başlanılıb. Müayinələr zamanı xəstəlik aşkar olunmuş vətəndaşlar stasionar və ambulator müalicələrə cəlb ediliblər, səhiyyə işçiləri insanların sağlamlığının keşiyində layiqincə dayanmağa çalışıblar.

### HƏKİMLƏRDƏN İBARƏT SƏYYAR BRİQADALAR

Həm dövlət başçısının tapşırığından,



həm də icra başçısının müvafiq sərəncamından və tərtib edilən tədbirlər planından irəli gələn vəzifələrin bu ilin birinci rübündə hansı səviyyədə yerinə yetirildiyini öyrənmək, hazırda da insanların müayinəsinin necə təşkil edildiyinin əyani şahidi olmaq üçün Suraxanı rayonundakı səhiyyə müəssisələrində olduq. İlk baş çəkdiyimiz ünvan 12 nömrəli Birləşmiş Şəhər Xəstəxanası (BŞX) oldu. Xəstəxananın baş həkimi Bəhlul Məmmədov bizimlə söhbət zamanı bildirdi ki, rəhbərlik etdiyi səhiyyə müəssisəsi 2013-cü ildə təmir olunub və müasir avadanlıqlarla təchiz edilib. Dövlət başçısının tapşırığını yerinə yetirmək üçün poliklinika tam hazır vəziyyətə gətirilib. Baş həkim dedi ki, dövlət başçısının tapşırığına uyğun olaraq, cari ilin birinci rübündə əhalinin müayinəsi tərtib edilmiş qrafikə əsasən aparılıb və bu gün də vətəndaşlar səhiyyə müəssisəsinə gələrək müayinədən keçirlər. Onun sözlərinə görə, sakinlər əvvəlcə terapevt tərəfindən müayinə olunublar. Sonra isə ehtiyaca uyğun olaraq onları cərrah, oftalmoloq, ginekoloq, nevropatoloq, stomatoloq və sair ixtisaslı həkimlər müayinə ediblər. Baş həkim qeyd etdi ki, 12 nömrəli BŞX 13572 nəfər böyük əhaliyə və 3958 uşağa xidmət edir. Bu xəstəxanaya gələn vətəndaşlar ümumi və biokimyəvi, rentgen, kardioqram, ultrasəs və digər müayinələrdən keçirlər. Xəstəlik aşkar edilən şəxslərin müalicəsi istiqamətində də tədbirlər görülür. B.Məmmədovun sözlərinə görə, burada işləyən həkimlərdən ibarət səyyar briqadalar da yaradılıb, məktəblərdə, uşaq bağçalarında və poliklinikaya gələ bilməyən yaşlı insanların evlərində onlara tibbi xidmət göstərilib. Eyni zamanda, qrafik əsasında idarə və təşkilatların əməkdaşları da müayinə olunublar, aşkara çıxarılan xəstəliklər üzrə müalicə kursları təyin edilib.

### VƏTƏNDAŞ MƏMNUNLUĞU

2014-cü ildə əsaslı təmir edilən 13 nömrəli BŞX ilə tanışlıq zamanı öyrəndik ki, xəstəxana 20 127 nəfərə xidmət edir. Baş həkim Zümrüd Abdullayeva bildirdi ki, xəstəxanaya müraciət edən vətəndaşlar hərtərəfli müayinələrdən keçir, lazımi müalicə və tibbi məsləhətlər alırlar. Z.Abdullayeva bizi Əmircan qəsəbə sakini, qəsəbə Ağsaqqallar Şurasının sədri Tofiq Nəsirovla da tanış etdi. Bildirdi ki, o, səhhəti ilə əlaqədar olaraq bu xəstəxanaya bir neçə dəfədir ki, müraciət edir. T.Nəsirov 15 nömrəli BŞX-nin tibbi heyətindən, burada yaradılan şəraitdən razılığını bildirərək, vətəndaşların qayğısına diqqətlə yanaşıldığını söylədi. O, dövlət başçısının təşəbbüsü ilə cari ilin əvvəlində rayondakı insanların kütləvi şəkildə müayinəyə cəlb olunmasından da söhbət açdı. Dedi ki, həmin vaxt o, da müayinədən keçib. Ağsaqqalın sözlərinə görə, fevralın 2-dən başlayan bu aksiya bir daha sübut edib ki, prezident İlham Əliyev hər bir Azərbaycan vətəndaşının qayğısına qalır. Kənardan söhbətimizə qoşulan Əmircan qəsəbəsinin digər sakini Səkinə İsmayılzadə də səhiyyə müəssisəsindəki şəraitdən razılığını bildirdi.

15 nömrəli BŞX-nın baş həkimi Arif Məmmədov söhbət əsnasında bildirdi ki, rəhbərlik etdiyi səhiyyə müəssisəsi iki il bundan öncə əsaslı təmir edilərək müasir avadanlıqlarla təchiz olunub. Qeyd etdi ki, cari il ərzində əhalinin müayinəsi bu tibb ocağında da tərtib edilmiş qrafikə əsasən aparılıb. O, bu ənənənin gələcəkdə davam etdiriləcəyinə inamını ifadə etdi. Baş həkim bildirdi ki, ixtisaslı həkimlərin fəaliyyət göstərdiyi xəstəxana 22 100 nəfər böyük əhaliyə və 12 900 uşağa xidmət edir. Onun sözlərinə görə, xəstəxanaya gələn vətəndaşlar ümumi və biokimyəvi, rentgen, kardioqram və digər müayinələrdən keçirlər. Xəstəxana ilə tanış olarkən həmsöhbət olduğumuz Qaraçuxur qəsəbəsi Veteranlar Şurasının sədri, qəsəbə sakini Əliağa Hüseynov, eləcə də digər qəsəbə sakini İbiş Əsgərov da səhiyyə müəssisəsinin işçilərindən razılıqlarını ifadə etdilər. Bildirdilər ki, xəstəxanada vətəndaşların qayğısına diqqətlə yanaşılır.

### ƏSAS HƏDƏFLƏR

24 nömrəli BŞX-sı da rayon ərazisində aparılan tikinti-quruculuq tədbirləri çərçivəsində 2014-cü ildə yenidən qurulub, xəstəxanada əsaslı təmir edilib, müasir avadanlıqlarla təchiz olunub. BŞX-nın baş həkimi Azər Məmmədovun dediyinə görə, ölkə başçısının tapşırığını yerinə yetirmək üçün xəstəxananın poliklinika şöbəsi tam hazır vəziyyətə gətirilib. O, əhalinin sağlamlığının qorunmasının Azərbaycan dövlətinin əsas hədəflərindən biri olduğunu diqqətə çatdıraraq, illərlə həkimə gəlməyənlərin yola saldığımız il ərzində müayinələrə cəlb olunduğunu vurğulayıb. Bildirib ki, istər cari il ərzində aparılan, istərsə də gələcəkdə aparılacaq müayinələrin əsas məqsədi xəstəliklərin erkən aşkarlanması, vətəndaşların səhhətinə ciddi ziyan vurmadan həmin xəstəliyin qarşısının alınmasıdır. Xəstəxanada olarkən Yeni Günəşli "AB" yaşayış sahəsinin sakini Mehranə Qasımova, "D" yaşayış sahəsinin sakini Aygün Bayramova ilə söhbətləşmək imkanımız da oldu. Hər iki rayon sakini xəstəxanada müayinə olunduqlarını bildirdilər. Qeyd etdilər ki, onlarda heç bir ciddi xəstəlik aşkarlanmasa belə, müayinənin müsbət nəticəsi özlərinə inamı daha da artırıb, həkimlərin faydalı məsləhətlərini qazanıblar.

### PEŞƏKAR HƏKİM MÜNASİBƏTİ, SƏMİMİ MİNNƏTDARLIQ

23 nömrəli Şəhər Poliklinikasının baş həkimi Şərəbanı Yusifzadə də səhiyyə müəssisəsində bir il bundan öncə əsaslı təmir işləri aparıldığını bildirdi. Rəhbərlik etdiyi müəssisənin 23 080 nəfər böyük əhaliyə xidmət etdiyini diqqətə çatdırdı. İl ərzində poliklinikaya gələn vətəndaşların ümumi və biokimyəvi, rentgen, kardioqram və digər müayinələrdən keçdiklərini vurğuladı. Qeyd etdi ki, bu günə qədər müayinədən keçən vətəndaşlarda müxtəlif xəstəliklər aşkar olunduğu halda onlar stasionar müalicəyə götürülüblər, həmin vətəndaşların müalicəsi istiqamətində müvafiq işlər görülüb. Poliklinikada müayinədən keçən Hövsan qəsəbə sakinləri Novruz Xanvəliyev və Natəvan Əliyevanın söylədikləri baş həkimin sözlərinin səmimiliyinə şübhə yeri qoymadı. Hər iki vətəndaş poliklinikada həkimlərin sözün əsl mənasında onların nazı ilə oynadıqlarını bildirdilər. Qeyd etdilər ki, belə bir şəraitin yaradılması təqdirəlayiq hadisədir. 24 nömrəli Şəhər Poliklinikasında gördüklərimiz, baş həkim Hacağa Bağırovun bizə verdiyi məlumatlar, 13 415 nəfər böyük əhaliyə və 4126 uşağa xidmət edən səhiyyə müəssisəsində Bülbülə qəsəbə sakini Mirzəağa Quluyev və digərləri ilə söhbətimiz də onu deməyə əsas verir ki, Suraxanı rayonunda əhaliyə nümunəvi tibbi xidmət göstərilir.

### NÜMUNƏVİ XİDMƏT

Rayon İcra Hakimiyyəti başçısının müavini Sevinc Hüseynovanın verdiyi məlumata görə isə, ölkə başçısının tapşırığından irəli gələrək, cari ilin I rübündə, daha dəqiq desək, aprelin 30-a kimi Suraxanı rayonunda 158 minə yaxın vətəndaş və 124 kollektiv tibbi müayinədən keçib. 6787 nəfər vətəndaşda müxtəlif xəstəliklər aşkarlanıb və 568 nəfər stasionar müalicəyə qəbul olunub. İcra başçısının müavini onu da əlavə edib ki, Suraxanı rayonunda yaşayan 212300 nəfər əhalinin, həmçinin rayonda məskunlaşmış 21858 nəfər məcburi köçkünün böyük əksəriyyəti ilin sonuna kimi müayinələrdən keçiblər. Beləliklə də dövlət başçısının tapşırığına uyğun olaraq əhalinin hərtərəfli tibbi müayinədən keç-



məsi, onların müalicəsinin aparılması Suraxanı rayonunda uğurla həyata keçirilib. Bütün bu faktlar həm də ölkə başçısı İlham Əliyevin, - "Mən hər bir azərbaycanlının Prezidentiyəm" - ifadəsinin tam reallığı əks etdirdiyini də təsdiqləyir.

**İlhamə RƏŞİDOVA**

**Yazı Suraxanı Rayon İcra Hakimiyyəti və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun birgə keçirdiyi müsabiqəyə təqdim edilir**